UOT 33.338.4

Rövşən Ağahüseyn oğlu HƏSƏNOV
Azərbaycan Kooperasiya Universiteti, i.f.d.
e-mail: rh767986@gmail.com,

Şakur Oruc oğlu SƏFƏROV
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının
iqtisadiyyat üzrə fəlsəfə doktoru
e-mail: shakirsafarov02@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.353

AZƏRBAYCANIN QLOBAL TİCARƏT ŞƏBƏKƏSİNDƏ MÜHÜM BEYNƏLXALQ NƏQLİYYAT VƏ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat sistemini, logistika infrastrukturunu və tranzit imkanlarını təhlil etmək, inkişaf etdirilməsi üçün görülən tədbirləri və perspektivləri təqdim etməkdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Azərbaycan Respublikasının strateji mövqeyi, beynəlxalq nəqliyyat dəhlizlərindəki rolu və tranzit potensialı ölkənin iqtisadi, sosial və geosiyasi inkişafına birbaşa təsir edir. Beynəlxalq daşımalar sahəsində qarşıya qoyulan vəzifələr Azərbaycanın qlobal ticarət sistemində rolunu artırmaq, nəqliyyat və logistika sahəsində lider mövqeyə yüksəlmək məqsədini daşıyır.

Tədqiqatın metodologiyası - Azərbaycan Respublikasının beynəlxalq daşımalar sisteminin inkişaf etdirilməsi istiqamətində aparılan araşdırmalar və icra olunan layihələr spesifik metodoloji yanaşmalar tələb edir. Bu metodologiya, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, tranzit potensialının artırılması və beynəlxalq ticarətdə mövqeyin gücləndirilməsi üçün hərtərəfli yanaşmanı təmin edir.

Tədqiqatın nəticələri - Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat və logistika sistemində apardığı islahatlar və həyata keçirdiyi layihələr ölkənin bu sahədə mühüm uğurlar əldə etməsinə şərait yaratmışdır. Geniş nəqliyyat infrastrukturunun qurulması, tranzit potensialının artırılması və beynəlxalq standartlara uyğun xidmətlərin təmin edilməsi Azərbaycanın qlobal nəqliyyat şəbəkəsində əsas iştirakçılardan birinə çevrilməsinə imkan tanıyır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat və logistika sistemində həyata keçirdiyi tədbirlər və layihələr ölkənin qlobal ticarət şəbəkəsində mühüm bir mərkəzə çevrilməsinə şərait yaratmışdır. Azərbaycanın geosiyasi mövqeyi, Asiya və Avropa arasında əhəmiyyətli bir nəqliyyat körpüsü kimi yerləşməsi ölkənin tranzit və logistika sahəsindəki potensialını artırmışdır. Bu potensialın reallaşdırılması məqsədilə həyata keçirilən islahatlar beynəlxalq ticarət əlaqələrinin genişlənməsi və dünya bazarlarında mövqeyinin möhkəmlənməsi üçün strateji əhəmiyyət kəsb edir.

Açar sözlər: beynəlxalq nəqliyyat sistemi, logistika infrastrukturu, tranzit potensialı, strateji mövqe, nəqliyyat dəhlizləri, beynəlxalq daşımalar, iqtisadi inkişaf.

Giriş

Nəqliyyat həyatımızda mühüm rol oynamaqla, onun iqtisadi, ictimai və siyasi rolu böyükdür. O, dövlətin iqtisadi bütövlüyünün təmin edilməsinə, regionlarda sosial-iqtisadi inkişaf potensialının artmasına, əhalinin rifah halının yüksəlməsinə, ölkənin bütün regionlarını bütövlüklə əlaqələndirməsinə, biznes və investisiya mühitinin formalaşmasına imkan yaradır. Nəqliyyat vasitələrinin köməyi ilə xammal və materiallar istehsala, istehsal olunan mallar isə istehlakçılara çatdırılır, iqtisadi əlaqələrin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Nəqliyyat modlarının köməyi

ilə yükləri və sərnişinləri dünyanın istənilən yerinə asanlıqla çatdırmaq olur. Nəqliyyat sistemi ölkənin milli iqtisadiyyatında mühim yer tutmaqla hər bir ölkənin yerləşdiyi coğrafi mövqeyinə, iqtisadi inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir. Demək olar ki, ölkəmizdə nəqliyyatın bütün sahələri, quru, su, hava və boru-kəməri nəqliyyatları mövcuddur.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturunun inkişafı: Beynəlxalq dəhlizlər, dəniz və boru kəməri layihələri

Ölkəmizdə malların orta və uzun məsafələr üzərindən yükdaşımaları həcminə görə dəmiryol nəqliyyatı 1-ci yer tutur. Daşımaların iş fəaliyyəti, ümumi istifadəli dəmir yollarında qatarların hərəkəti, manevr işi ilə əlaqəli olan yüklərin vaqonlara, konteynerlərə yüklənməsi, yerləşdirilməsi, bərkidilməsi və yüklərin boşaldılması “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən aparılır. ADY-də yükdaşıma fəaliyyətinin müxtəlif növləri (dalan dəmir yoluna vaqonların verilməsi, marşrut üzrə daşınacaq yüklərin mühafizəsi, vaqon tərəzisinin yoxlanılması, plombların satışı, çən vaqonlarının daxildən yuyulub deqazasiya edilməsi və xaricdən yuyulması, stansiya xidmətləri, lokomotiv və vaqon təmiri) üzrə kontragentlərə xidmətlər həyata keçirir. Ölkəmizdə daşınan yüklərin dövriyyəsinə nəzər salsaq yüklərin əsas hissəsini neft məhsulları, taxıl və çörək məhsulları, mineral tikinti materialları, kimyəvi və mineral gübrələr təşkil edir.

ADY transformasiya çərçivəsində rəqəmsal texnologiyalardan istifadə etməklə yükləmə və boşaltma əməliyyatlarını qısa boşaltma vaxtı ilə və yüksək məhsuldarlıqla həyata keçirir. Bu yaxınlarda Asiya İnkişaf Bankı 47 milyon ABŞ dolları həcmində Azərbaycanda dəmir yolları sisteminin rəqəmsallaşmasına dəstək üçün kredit ayırmışdır [1].

ADY yükdaşımalarının keyfiyyətli və vaxtında icrası üçün inkişaf etmiş ölkələrin son istehsalı olan konteynerlər, lokomotivlər, yük vaqonları almaqla hərəkət tərkibi parkını yeniləməkdə davam edir. Sərnişindaşımada ətraf mühitə tullantıları azaltmaq üçün yeni nəsil elektrik qatarlarından istifadə edilir. ADY ənənəvi şirkət nümunəsindən müasir, inteqrə olunmuş, keyfiyyətli xidmətlər göstərən rəqəmsallaşma və logistika sahəsində regionun lider şirkətinə, fəaliyyətini ISO 9001: 2015 beynəlxalq standartlarının tələblərinə uyğun korporativ quruma çevrilməyi, reputasiya və nüfuz qazanmağı hədəfləmişdir [2].

Dəmir yollarına yatırılan irihəcmli kapital qoyuluşları və investisiya layihələri mərhələli şəkildə həyata keçirilir, köhnəlmiş infrastruktur problemi aradan qaldırılaraq infrastruktur yenidən qurulur, innovativ texnologiyalar tətbiq etməklə idarəetmə sistemi optimallaşdırılır, əməliyyatların səmərəliliyi və rəqəmsallaşması uğurla həyata keçirilir. Ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra ölkə başçısının tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulması, şaxələndirilməsi və təzə xətlərin çəkilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilərək işlərin icrasına start verilmişdir. Bərpa proqramı çərçivəsində “Bərdə-Ağdam”, “Horadiz-Ağbənd” dəmir yolu xətlərinin yenidən qurulması, “Füzuli-Şuşa” yeni dəmir yolu xəttinin inşası və zəruri infrastrukturun yaradılması istiqamətində işlər davam etdirilir.

Dünyanın 100 layihəsi siyahısına daxil olan “Bakı-Tbilisi-Qars” dəmir yolu xəttinin fəaliyyətə başlaması Azərbaycanın xarici siyasət kursunda dövlət təhülkəsizliyinin və suverenliyinin möhkəmləndirilməsinə, eləcə də, ölkəmizə qoyulan investisiyaların həcminin artmasına, ixracyönümlü iqtisadiyyatın inkişaf etdirilməsinə, ixrac, idxal və tranzit malların daşınmasında xarici iqtisadi əlaqələrin genişləndirilməsinə, beynəlxalq miqyasda nüfuzunun yüksəldilməsinə və investorların cəlb olunmasına əhəmiyyətli təsir etməkdədir.

Təsadüfi deyil ki, Davos Forumunun hesabatına əsasən, dəmir yollarının səmərəliliyinə görə ölkəmiz 11-ci yerdədir [3]. Avropa və Asiya qitələrini birləşdirən bu dəmir yolu xətti yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox azaltmağa imkan verir. Blok-qatarlar Çindən Azərbaycana orta hesabla 8-10 gün, Gürcüstanın limanlarına isə 12 gün ərzində çatdırılır. BTQ Avrasiya regionunda yerləşən ölkələr arasında iqtisadi inkişafın və beynəlxalq ticarət həcminin artmasına kömək edir.

Beynəlxalq dəhlizlər və infrastruktur müxtəlif ölkələrin iqtisadiyyatına daha sıx inteqrasiyaya imkan yaradır ki, nəticədə bölgədəki iqtisadi sabitliyə və inkişafa töhfə verir. Çin, Mərkəzi Asiya

və Cənub-Şərqi Asiya, o cümlədən digər qonşu ölkələrin BTQ vasitəsilə Avropaya yüklərin daşınması, yeni bazarlara asanlıqla çıxış əldə edə bilməsi Azərbaycanı regional nəqliyyat habına çevirmiş, siyasi və iqtisadi dividentlər qazandırmışdır. Layihə çərçivəsində gələcəkdə Qars və İstanbul şəhərlərinə sərnişin daşımaların həyata keçirilməsi mümkün olacaqdır. 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarsdan Naxçıvana uzunluğu 224 kilometr, 5 stansiyadan ibarət olacaq (Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa) dəmir yolu xəttinin çəkilməsini nəzərdə tutan Qars-Naxçıvan dəmir yolu layihəsinə dair niyyət protokolu imzalamışdır [9].

“Şimal-Cənub” və “Bakı-Tbilisi-Qars” nəqliyyat dəhlizlərinin inteqrasiyası istiqamətində önəmli addımlar atılır ki, bu da respublika ərazisində yeni nəqliyyat qovşağının yaranmasına səbəb olacaqdır. Qlobal və regional nəqliyyat və logistika zəncirinin bir hissəsi kimi rəqabətə davam gətirmək məqsədilə, ölkəmizdən keçən Şimal-Cənub Beynəlxalq Nəqliyyatı Dəhlizi çərçivəsində İran İslam Respublikasının Astara şəhərində illik 4 milyon ton yük əməliyyatlarının aparılması üçün “Astara” dəmir yolu terminalı istifadəyə verilmişdir [7]. Ölkəmiz “Beynəlxalq Dəmir Yolu Yük Daşımaları” (SMQS) haqqında imzalanmış sazişin və “Beynəlxalq Dəmiryol Daşımaları haqqında Konvensiya”nın (KOTİF) üzvüdür.

Müstəqillik qazandıqdan sonra ölkəmizin ilk, ən iri milli aviaşirkəti və milli aviadaşıyıcısı “Azərbaycan Hava Yolları” Dövlət Konserni 7 aprel 1992-ci il tarixində təsis edilmiş, 2008-ci il tarixində adı dəyişdirilərək "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyəti kimi adlandırılmışdır. Bu gün müasir donanma, uçuşlarının təhlükəsizliyinin təmin edilməsi, səyahətçilərin rahatlığı üçün bilet satışı, təyyarə göyərtəsində göstərilən xidmətlərin yüksək səviyyəsi, personalın nəzakətli davranışı və peşəkarlığı, gözləmə yerlərinin konfortluğu, gömrüksüz ticarət mağazalarının (duty free) və ödənişsiz WiFi zonalarının olması, uçuşların geniş coğrafiyası, yoxlama məntəqəsində sərnişin yoxlamasının sürəti, dünyanın müxtəlif ölkələrinə gündəlik göndərişlər, uğurlu tarif siyasəti milli aviadaşıyıcıya regionun qabaqcıl aviadaşıyıcılar siyahısında olmağa imkan vermişdir. Halhazırda ölkəmizdə Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala kimi beynəlxalq, yerli əhəmiyyətə malik Yevlax və aviasiya uçuşları üçün bağlı olan Xocalı aeroportları mövcuddur.

Ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun yaxşılaşdırılması və ən yüksək səviyyədə hava nəqliyyatı xidmətlərinin göstərilməsi istiqamətində aparılan tikinti işləri ilə, işğaldan azad olunmuş Füzuli, Zəngilan və Laçın şəhərlərində müasir, dünya tələblərinə cavab verən, ICAO və IATA standartlarına uyğun beynəlxalq hava limanları tikilərək istifadəyə verilmişdir. Azərbaycan Hava Yolları” QSC aviaşirkəti İCAO, İATA, ECAC, Dövlətlərarası Aviasiya Komitəsi kimi tanınmış mülki aviasiya birliklərinin tam səlahiyyətli üzvüdür. Azərbaycanın geostrateji mövqeyi, Avropa ilə Asiya qitələri arasında yerləşməsi ölkəmizi əlverişli nəqliyyat-tranzit qovşaqlarından birinə çevirmişdir. Xarici daşımaların fəaliyyətində Bakı-Həştərxan, Bakı-Mahaçqala, Bakı-Ənzəli, Bakı-Bekdaşı, Bakı-Türkmənbaşı, Bakı-Aktau mənzillərini qeyd etmək olar.

Nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit yükdaşımalarının artan tələbatının qarşılanması, tranzit potensialının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və nəqliyyat dəhlizlərinin formalaşdırılması ilə bağlı həyata keçirilən qlobal miqyaslı təşəbbüslərdən biri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən müasir dövrün ən son mühəndislik yeniliklərindən olan 25 milyon tona qədər yük daşıma gücünə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (BBDTL) tikintisidir. Bu, “Şərq-Qərb” və “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və ilk azad ticarət zonası olaraq Azərbaycanın tranzit imkanlarının genişlənməsində, regionun nəqliyyat və logistika mərkəzinə çevrilməsində həlledici rol oynayır.

BBDTL kompleksi beynəlxalq dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanması funksiyasını yerinə yetirir və multimodal daşımaların ayrılmaz tərkib hissəsi olan BTQ dəmir yolu xətti ilə Avropa istiqamətinə və ya gəmilərlə şərq istiqamətinə səmərəli daşınmasını təmin edir. BBDTL ölkəmizdə dəniz daşımalarının inkişafına öz bəhrəsini verir. Azərbaycan Respublikası 1995-ci ilin may ayından Beynəlxalq Dəniz Təşkilatına (IMO), 4 mart 2016-cı il tarixində Okean və dəniz

mühitinin mühafizəsi, çirklənməsi və qəzaların qarşısının alınması məqsədilə “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”na, 4 mart 2016-cı il tarixində “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”-na qoşulmuşdur [5].

Azərbaycanda nəqliyyat sisteminin bir qolu olan boru kəməri nəqliyyatının yaranması neft sənayesinin inkişafı və təşəkkülü dövründə başlamışdır. Təbii ki, burada əsas səbəb ölkəmizin ixrac potensialının əsasını qaz, neft və neft məhsullarının təşkil etməsidir. Boru kəmərinin tikintisi böyük maliyyə yatırımları tələb etməsinə baxmayaraq, ölkəmiz üçün neft və təbii qazın nəqlində böyük strateji əhəmiyyətə malikdir. Ölkəmizdə bir neçə mühüm perspektivli qlobal neft-qaz kəməri layihələri həyata keçirilmişdir.

1878-ci ildə Nobel qardaşlarının sifarişi ilə Balaxanı mədənlərindən Qara şəhərdəki Bakı neftayırma zavoduna buxar mühərrikli nasoslarla təchiz olunan 12 km uzunluğunda ilk neft kəməri inşası gerçəkləşdirilmişdir. 1907-ci ildə Bakı-Batumi magistral neft kəmərinin çəkilməsi ilə Bakı nefti dünya bazarına çıxarılmışdır. Bu günkü Azərbaycanda neft Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan (1767 km) boru kəmərləri ilə, kommersiya təyinatlı təbii qaz isə Bakı-Tbilisi-Ərzurum, TAP (Trans Adriatik Boru Kəməri) və TANAP (Trans Anadolu Qaz Boru Kəməri) vasitəsi ilə dünya bazarlarına çatdırılır [10].

Avtomobil nəqliyyatı ilə ölkədaxili və beynəlxalq yüklərin daşınması AR qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalara uyğun həyata keçirilir. Ölkəmizdə yüklərin daşınmasının tənzimlənməsində "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması qaydaları" tətbiq edilir. Bu qanunlar avtonəqliyyat vasitələri ilə yüklərin beynəlxalq və ölkədaxili daşınmasının təşkilini, müxtəlif növ yüklərin daşınmaya qəbul edilmə tələblərini, nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılmasını, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin başlıca prinsipləri və s. ilə bağlı tələbləri müəyyən edər. Ölkəmizdə avtomobil yolları sahəsində idarəetmənin, habelə nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsi, həyata keçirilən işlərin səmərəliliyinin artırılması və sistemliliyinin təmin edilməsi məqsədilə AR Prezidentinin 2017-ci il 18 oktyabr tarixli, 1638 saylı Fərmanı ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) yaradılmışdır [8].

Azərbaycan Respublikası yüklərin daşınmasını tənzimləyən bir sıra beynəlxalq konvensiyaların iştirakçısıdır. Ölkəmiz 1993- cü ilin noyabr ayında “Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı”na (İRU) üzv olmuş və 2000-ci il 11 fevral tarixində “Beynəlxalq avtomobil daşımaları müqaviləsi”nə (CMR) dair Konvensiyanı imzalamışdır. Bu konvensiya daşıyıcılarla yükgöndərənlər arasında müqavilə münasibətlərini, yaranan iddia və məhkəmələrin baxılma qaydasını tənzimləyir, malların itirilməsi və ya zədələnməsinə görə məsuliyyəti müəyyən edir. Tranzit yükdaşımaların, habelə ölkə iqtisadiyyatının artım tempi nəzərə alınmaqla avtomobil magistrallarının genişləndirilməsi, trafik sıxlığının azaldılması, səyahət vaxtının minumuma endirilməsi, mövcud beynəlxalq və yerli əhəmiyyətli yolların yenidən qurulması ilə irihəcmli investisiyalar qoyulmuşdur.

Azərbaycan Respublikasında son dövrlərdə havaların normadan artıq isti keçməsi və yağıntı miqdarının azalması ilə əlaqədar çaylarda sululuq səviyyəsinin aşağı düşməsi çay nəqliyyatının rolunda azalmalara gətirib çıxarmışdır. Kür Azərbaycanın yeganə çay gəmiçiliyi yolu omaqla, yerli əhəmiyyətli yüklər kiçik çay gəmilərilə Kür çayının mənsəbindən Yevlax şəhərinə qədər daşınır. “AAYDA”,“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC, “ADY” QSC, “Azərbaycan Hava Yolları” QSC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC, “Dövlət Gömrük Komitəsi” və digər dövlət qurumları arasında beynəlxalq daşımaların daha səmərəli həyata keçirilməsində koordinasiyalı işin qurulması, o cümlədən rəqəmsal sistemlərin qonşu ölkələrin şəbəkələri ilə inteqrasiya prosesini həyata keçirə bilməsi üçün dünya bazarında rəqabət apara bilən milli beynəlxalq nəqliyyat logistika şirkətlərinin yaradılması vacibdir.

Ölkəmizin sosial-iqtisadi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və xarici ticarətin diversifikasiyası kimi milli məqsədlərə nail olunması məqsədilə yük sahibləri üçün satış bazarlarının nəqliyyat və logistika xidmətlərinin tam çeşidinə çıxış imkanları və nəqliyyat əlçatanlığı artırılmalıdır. “Lapis-Lazuli” (Lazurit) marşrutu üzrə

tranzit və nəqliyyat əməkdaşlığına dair Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə arasında beştərəfli saziş 2017-ci il noyabrın 15-də Aşqabadda imzalanıb. Sənəddə iştirakçı ölkələrin nəqliyyat infrastrukturunun modernləşdirilməsi, həmçinin gömrük rəsmiləşdirilməsi proseduralarının asanlaşdırılması nəzərdə tutulur. Saziş razılıq əldə edən tərəflərin ərazisindən yüklərin fasiləsiz daşınmasına, nəqliyyatın tranzit hərəkəti ilə bağlı məsələlərin və proseduraların sadələşdirilməsinə şərait yaradır, nəqliyyat vasitələrinin, yüklərin və sərnişinlərin təhlükəsizliyini təmin edir.

Nəqliyyat dəhlizinin “Lazurit” adlanması iki min il əvvəl bu marşrutla əfqan lazuriti və digər yarımqiymətli daşların Qafqaza, Balkan ölkələrinə, Şimali Afrikaya və Avropaya daşınması ilə əlaqəlidir. 2018-ci ildə Əfqanıstanın Herat şəhərində Lazurit dəhlizi üzrə yükdaşımalara start verilib. Lazurit dəhlizi layihənin üzv ölkələrinə regional və kontinental ticarət bazarlarına çıxışları şaxələndirmək üçün şərait yaradacaq. Bu da, öz növbəsində, həm bu dəhliz vasitəsilə yük daşıyan ölkələrin, həm də ərazisindən malların tranziti üçün istifadə olunacaq dövlətlərin iqtisadi inkişafına, həmçinin sürətli və ucuz daşımalar hesabına alıcı ölkələrə malları daha ucuz qiymətə əldə etməyə imkan verəcək.

Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı: Bakı-Tbilisi-Qars dəmir yolu və Ələt İqtisadi Zonası

2017-ci ildə istifadəyə verilən regionumuzun ən iri infrastruktur layihələrindən biri hesab olunan illik 5 milyon ton yükdaşırma gücünə malik “Bakı-Tbilisi-Qars” dəmir yolu xəttinin fəaliyyətə başlaması, həmin marşrut üzrə Çindən Avropaya “Orta Koridor” Dəmir İpək Yolu vasitəsi ilə yükdaşımalarının həyata keçirilməsi Azərbaycanın qitələrarası tranzit imkanlarını genişləndirməkdə davam etdirir. Ölkəmizdə mükəmməl nəqliyyat infrastrukturu yaradılıb və təqdirəlayiq haldır ki, nəqliyyatın bütün sahələrində yeni layihələr reallaşdırılıb.

Təsadüfi deyildir ki, Azərbaycanın yol infrastrukturu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilib. Elə Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü, dəmir yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. İllik yükdaşırma gücü ilkin mərhələdə 500 000 ton, daha sonra isə 1,5 milyon tona qədər artacağı planlaşdırılan Ələt İqtisadi Zonasında yeni hava limanının tikilməsi nəzərdə tutulur. Bu da öz növbəsində iqtisadi zonalara texnologiya və xammalın daha asan şəkildə gətirilməsinə, istehsal edilən malların xarici bazara çıxarılmasına və tranzit yüklərin daşınmasına kömək olacaq.

44 günlük Vətən müharibəsindəki zəfərdən sonra ölkəmizin ən böyük hədəflərindən biri Zəngəzur dəhlizinin açılması və nəqliyyat-kommunikasiya, logistika imkanlarının genişləndirilməsidir. Zəngəzur dəhlizinin açılması qlobal iqtisadiyyatda ən iri iqtisadiyyata malik ölkələrin, Avropanın, Çinin də marağındadır. Bu, strateji baxımdan iqtisadi inteqrasiyanın genişlənməsinə böyük imkanlar açır.

Zəngəzur dəhlizi Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsinə, beynəlxalq ticarət proseslərinin intensivləşdirilməsinə şərait yaradır. Gələcəyə hesablanmış bu dəhliz vasitəsilə Azərbaycanın onun ayrılmaz tərkib hissəsi olan, uzun illər blokadada qalmış Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi təmin edilicək. Bu dəhliz vasitəsilə Azərbaycan qardaş ölkə Türkiyə Cümhuriyyətinə və Avropa ölkələrinə qısa müddətdə yüklərin daşınmasına, bölgənin inkişafının sürətlənməsinə, regionun tranzit və logistik əhəmiyyətinin artırılmasına nail olacaqdır. Bu layihənin perspektivliyini artıran digər bir məsələ qardaş ölkələrin Zəngəzur dəhlizi vasitəsi ilə coğrafi baxımdan birlik və bərabərliyə qovuşmasıdır [4].

Beynəlxalq nəqliyyat və logistika infrastrukturunun inkişafı Azərbaycanın qlobal ticarətdəki rolunun gücləndirilməsinə müsbət təsir göstərir. Bu, iqtisadi artım imkanlarını genişləndirəcək, qarşılıqlı əlaqələrin inkişafına təkan verəcək, malların daşınma vaxtını və xərclərini azaldacaq, habelə beynəlxalq ticarət əməliyyatlarının səmərəliliyini artıracaqdır. Bu məqsədlə nəqliyyat və logistika xidmətləri üçün sərmayə qoyuluşunun stimullaşdırılması mexanizmlərinin hazırlanması, investisiya dəstəyinin gücləndirilməsi və maliyyə dayanıqlılığına nail olunması məqsədilə investorlar üçün əlverişli rəqabət mühitinin təşviq olunmasına, demonopolizasiya prosesinin həyata

keçirilməsinə, ekoloji təmiz və müasir tələblərə cavab verən rəqabətqabiliyyətli nəqliyyat vasitələrinin istifadəsinə, sərhəd-keçid prosedurlarının sadələşdirilməsinə və fəaliyyətinin avtomatlaşdırılmasına, yükdaşımaların qəbul prosedurlarının təkmilləşdirilməsinə, güzəştli şərtlərlə kreditlərin və lizinqlərin verilməsinə, nəqliyyat təşkilatlarına subsidiyaların ayrılmasına, vergi və digər dövlət ödənişləri üzrə güzəştlərin müəyyən edilməsinə yönəldilmiş tədbirlər davam etdirilməlidir.

Nəqliyyat infrastrukturu layihələrini həyata keçirmək və müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün böyükhəcmli investisiyalar tələb edilir. Nəqliyyat sənayesinin inkişafı ilə bağlı uzunmüddətli məqsədləri dəstəkləmək üçün layihələrin uzunmüddətli maliyyələşdirilməsi imkanlarını asanlaşdıran maliyyə qurumları müəyyən edilməli, büdcə vəsaitləri əsas mənbə olmamalı, əksinə, özəl investisiyaların axını üçün stimul yaradılmalıdır [6]. Beynəlxalq daşımalarda malların uzaq və çətin mövqedə yerləşən ərazilərə etibarlı və sürətli çatdırılmasının həyata keçirilməsi üçün nəqliyyatın müxtəlif modlarının koordinasiyalı inkişafı və onların qarşılıqlı əlaqəsinin təşkil edilməsi mühüm rol oynayır. Nəqliyyat modlarını effektiv şəkildə birləşdirməklə nəqliyyat vasitələrinin səmərəli idarə olunmasına, nəqliyyat sıxlığının qarşısını almağa, yüklərin çatdırılması prosesini optimallaşdırmağa, malların birbaşa alıcıya çatdırılmasına və s. imkan yaranır.

Logistika əməliyyatlarının effektiv idarə edilməsi prosesində mərkəzləşdirilmiş idarəetməyə ehtiyac var. Buna görə də, ölkəmizdə logistika sahəsində informasiya-analitik sistemin yaradılması və inkişaf etdirilməsi, o cümlədən bu sahədə kiberhücumlar və kibercinayətkarlıq təhlükəsizliyini təmin etmək üçün effektiv strategiyaların işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir. Malların və nəqliyyat vasitələrinin hərəkətinin gömrük tənzimlənməsində səmərəlilik beynəlxalq nəqliyyat xərclərinin azaldılmasında, beynəlxalq ticarətin sürətləndirilməsi və iqtisadi imkanların genişləndirilməsində mühüm amildir.

Elektron gömrük bəyannaməsi və avtomatlaşdırılmış gömrük tənzimləməsi istiqamətində həyata keçirilən texnoloji həllər qaçaqmalçılıq və qeyri-qanuni ticarətin, lazımsız gecikmələrin və əlavə məbləğlərin qarşısını alır, malların idxalı, ixracı və tranziti prosedurları barədə sənədləşmə tələblərinin azaldılmasını və məlumatların internet vasitəsilə əldə edilməsini təmin edir, malların müvəqqəti saxlanılması xərclərini optimallaşdırır, gömrük rəsmiləşdirmələrinin vaxtını azaldaraq sərhədlər boyunca yük axınını sürətləndirir. Bu məqsədə çatmaq üçün aşağıdakı təkliflər nəzərə almalıdır:

- Ölkəmizdə beynəlxalq nəqliyyat dəhlizləri boyunca logistika mərkəzlərinin və gömrük anbarlarının sayları artırılmalı;
- Gömrük sahəsində islahatlar aparılmalı, gömrük prosedurları təkmilləşdirilməli;
- Gömrük əməliyyatlarının şəffaflığını artırmaq üçün gömrük rüsumlarının yığımının “ASAN xidmət” mərkəzləri vasitəsilə həyata keçirilməsi təmin edilməlidir.

Nəticə

Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat və logistika sistemində aparılmış tədbirlər və layihələr ölkənin qlobal ticarət şəbəkəsində mühüm bir mərkəzə çevrilməsinə şərait yaratmışdır. Azərbaycan, geosiyasi mövqeyinə əsaslanaraq, Asiya və Avropa arasında nəqliyyat körpüsü kimi strateji əhəmiyyətə malikdir. Həyata keçirilən islahatlar və inkişaf layihələri sayəsində nəqliyyat infrastrukturu modernləşdirilib, tranzit potensialı artırılıb, beynəlxalq standartlara uyğun xidmətlər təmin edilib. Bu tədbirlər ölkənin qlobal ticarətdə mövqeyinin möhkəmləndirilməsinə, iqtisadi artımın təmin edilməsinə və regionda lider mövqeyə yüksəlməsinə töhfə verir.

Azərbaycanın nəqliyyat sahəsindəki irəliləyişləri və layihələri beynəlxalq əməkdaşlığın genişlənməsinə şərait yaradır. “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin inkişafı ilə ölkə Avrasiyanın nəqliyyat və logistika mərkəzinə çevrilməkdədir. Həmçinin Zəngəzur dəhlizi və digər strateji layihələr Azərbaycanın nəqliyyat sahəsindəki əhəmiyyətini daha da artırır. Bu nəticələr beynəlxalq ticarətin sürətləndirilməsi, malların daşınma vaxtının və xərclərinin azaldılması, həmçinin qlobal iqtisadi inteqrasiyanın genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın əldə etdiyi nailiyyətlər və gələcəkdə reallaşdırılacaq layihələr, ölkənin iqtisadi inkişafı və beynəlxalq arenadakı nüfuzunu gücləndirmək məqsədinə xidmət edir.

ƏDƏBİYYAT

1. Dünya Bankı, Beynəlxalq nəqliyyat infrastrukturunun inkişafı, 2020.
2. Asiya İnkişaf Bankı, Azərbaycanın dəmir yolu sisteminin rəqəmsallaşma layihələri üzrə hesabat, 2022.
3. Davos Ümumdünya İqtisadi Forumu, Beynəlxalq daşımalar üzrə rəqabətqabiliyyətlilik hesabatı: Azərbaycan, 2022.
4. Azərbaycan Respublikası Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi, Zəngəzur dəhlizi və regional inteqrasiya perspektivləri, 2023.
5. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı QSC, Trans-Xəzər nəqliyyat dəhlizinin inkişafı haqqında illik hesabat, 2022.
6. Beynəlxalq Nəqliyyat Forumunun İllik Məruzəsi, Beynəlxalq tranzit yükdaşımalarının perspektivləri, 2020.
7. Şimal-Cənub Nəqliyyat Dəhlizi Təşkilatı, Logistika və nəqliyyat zəncirlərində inteqrasiya tədbirləri, 2021.
8. CMR Konvensiyası üzrə hesabat, Beynəlxalq avtomobil daşımaları müqaviləsi çərçivəsində hüquqi və iqtisadi aspektlər, 2020.
9. Bakı-Tbilisi-Qars Layihəsi, Dəmir yolu nəqliyyatının beynəlxalq ticarətə təsiri, 2021.
10. TANAP və TAP boru kəmərləri konsorsiumu, Qlobal enerji daşımaları və Azərbaycanın rolu, 2023.

Ровшан Агагусей оглы Гасанов
Азербайджанский Университет Кооперации
Кандидат экономических наук
электронная почта: rh767986@gmail.com,

Шакур Орудж оглы Сафаров
Азербайджанская Академия Труда и Социальных Отношений
Кандидат экономических наук
электронная почта: shakirsafarov02@gmail.com

Направления превращения Азербайджана в важный международный транспортно-логистический центр в глобальной торговой сети

Резюме

Целью исследования - является анализ международной транспортной системы, логистической инфраструктуры и транзитных возможностей Азербайджанской Республики, а также представление мер, принимаемых для их развития и перспектив.

Практическое значение исследования - стратегическое положение Азербайджанской Республики, ее роль в международных транспортных коридорах и транзитный потенциал напрямую влияют на экономическое, социальное и геополитическое развитие страны. Поставленные задачи в сфере международных перевозок направлены на повышение роли Азербайджана в мировой торговой системе и выход на лидирующие позиции в сфере транспорта и логистики.

Методология исследования - исследования и проекты, реализуемые в целях развития международной транспортной системы Азербайджанской Республики, требуют особых методологических подходов. Данная методология обеспечивает комплексный подход к совершенствованию транспортной инфраструктуры, повышению транзитного потенциала и укреплению позиций в международной торговле.

Результаты исследования - реформы и проекты, реализуемые Азербайджанской Республикой в системе международного транспорта и логистики, позволили стране добиться значительных успехов в этой области. Создание разветвленной транспортной инфраструктуры, увеличение транзитного потенциала и предоставление услуг на уровне международных стандартов

позволят Азербайджану стать ключевым участником мировой транспортной сети.

Оригинальность и научная новизна исследования - реализуемые Азербайджанской Республикой меры и проекты в международной транспортно-логистической системе создали условия для превращения страны в важный центр мировой торговой сети. Геополитическое положение Азербайджана как важного транспортного моста между Азией и Европой увеличило потенциал страны в сфере транзита и логистики. Реформы, проводимые для реализации этого потенциала, имеют стратегическое значение для расширения международных торговых связей и укрепления позиций на мировых рынках.

Ключевые слова: международная транспортная система, логистическая инфраструктура, транзитный потенциал, стратегическое положение, транспортные коридоры, международные перевозки, экономическое развитие.

Rovshan Agahuseyn Hasanov
PhD in Economics, Azerbaijan Universiti of Cooperation,
e-mail: rh767986@gmail.com,

Shakur Oruc Safarov
PhD in Economics, Azerbaijan Academy of Labor and Social Relations
e-mail: shakirsafarov02@gmail.com

Directions for Azerbaijan to become an important international transport and logistic center in the global trade network

Summary

The purpose of the research - to analyze the international transport system, logistics infrastructure and transit opportunities of the Republic of Azerbaijan, to present the measures taken and prospects for their development.

The practical significance of the research - the strategic position of the Republic of Azerbaijan, its role in international transport corridors and transit potential directly affect the economic, social and geopolitical development of the country. The tasks set in the field of international transport are aimed at increasing the role of Azerbaijan in the global trade system and achieving a leading position in the field of transport and logistics.

Research methodology - research and projects carried out in the direction of developing the international transport system of the Republic of Azerbaijan require specific methodological approaches. This methodology provides a comprehensive approach to improving transport infrastructure, increasing transit potential and strengthening the position in international trade.

The results of the research - The reforms carried out by the Republic of Azerbaijan in the international transport and logistics system and the projects implemented have created conditions for the country to achieve significant successes in this area. The establishment of an extensive transport infrastructure, increasing transit potential and providing services in accordance with international standards allow Azerbaijan to become one of the main participants in the global transport network.

The originality and scientific novelty of the research - The measures and projects implemented by the Republic of Azerbaijan in the international transport and logistics system have created conditions for the country to become an important center in the global trade network. The geopolitical position of Azerbaijan, its location as an important transport bridge between Asia and Europe, has increased the country's potential in the field of transit and logistics. The reforms implemented to realize this potential are of strategic importance for the expansion of international trade relations and strengthening its position in world markets.

Keywords: international transport system, logistics infrastructure, transit potential, strategic position, transport corridors, international transportation, economic development.